


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 92 (23.979)

*19 may 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Litva Respublikasının Prezidenti Gitanas Nausedanın mayın 18-də rəsmi qarşılanma mərasimi olub. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olub.

Litva Prezidentini salamlayan Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, siyasi əlaqələrimiz, siyasi dialoq və regional vəziyyət bu gün müzakirə ediləcək məsələlər sırasındadır. Litva Prezidenti Gitanas Nauseda qonaqpərvərliyə görə təşəkkür edərək deyib ki, bu görüş ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına əlavə təkan vermək üçün çox yaxşı fürsətdir.

Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda mətbuata bəyanatlarla çıxış ediblər. Həmin gün Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Litva Respublikasının birinci xanımı Diana Nausediene ilə görüşü olub.

Mayın 18-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Litva biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda biznes forumda iştirak ediblər. Dövlət başçıları biznes forumda çıxış ediblər. Sonra Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimi olub. Daha sonra dövlət başçıları Heydər Əliyev Mərkəzində klassik avtomobillərin sərgisi ilə tanış olublar.

## Muxtar respublikada heyvandarlığın inkişafı üzrə ardıcıl işlər görülür

Muxtar respublikada əhalinin etibarlı ərzaq məhsulları ilə təminatında və özünüməşğulluğun həyata keçirilməsində prioritet istiqamətlərdən biri də heyvandarlığın inkişafıdır.

Son dövrlər bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası, yeni heyvandarlıq təsərrüfatlarının yaradılması, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, süni mayalanma yolu ilə doğulmuş hər baş buzova görə fermerlərə subsidiyaların verilməsi, baytarlıq idarələrinin maddi-texniki bazasının gücləndirilməsi və ixtisaslı kadrlarla təminat heyvandarlığın inkişafına geniş imkanlar yaratmışdır.

Bu istiqamətdə həyata keçirilən tədbirlər cari ilin ilk dörd ayı ərzində də davam etdirilmiş, 28 heyvandarlıq təsərrüfatının yaradılması, 6 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 6 heyvandarlıq təsərrüfatının yaradılması, 1 heyvandarlıq kompleksinin yenidən qurulması və 9 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Bank və kredit təşkilatları tərəfindən bu sahəyə 2022-ci ilin yanvar-aprel aylarında 5 milyon 110 min 400 manat kredit verilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 3,1 dəfə çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzinin yaradılması və 2021-ci ildə müvafiq mərkəzin istifadəyə verilməsi muxtar respublikada heyvandarlığın inkişafı istiqamətində həyata keçirilən mühüm tədbirdir.

Bu sahədə görülən işlərin nəticəsi olaraq 2022-ci ilin yanvar-aprel aylarında muxtar respublikada heyvandarlıq təsərrüfatlarında 3385 baş inək, düyə və camış süni yolla mayalandırılmış, bu dövrdə 3993 baş sağlam bala alınmışdır.

Heyvandarlığın inkişafı üzrə həyata keçirilən tədbirlər muxtar respublikada iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayının dinamik artımını təmin etmiş, 1 aprel 2022-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 127 min 269 baş, qoyun və keçilərin sayı 801 min 228 baş olmuşdur ki, bu da 1 aprel 2018-ci il tarixə olan göstəriciləri 6,6 və 8 faiz üstələmişdir.

Daxili bazarda yerli istehsalın həcminin artırılması məqsədilə cari ilin yanvar-aprel aylarında 2 quşçuluq təsərrüfatının yaradılması başa çatdırılmış, 1 quşçuluq təsərrüfatının yenidən qurulması davam etdirilmişdir. Bundan əlavə, arıçılığın inkişafı istiqamətində müvafiq tədbirlər görülmüş, 2 arıçılıq təsərrüfatının, 1 damazlıq ana arı yetişdirmə təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 1 arıçılıq təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Cari ilin yanvar-aprel aylarında quşçuluğun və arıçılığın inkişafına, ümumilikdə, 137 min manat kredit verilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 2,9 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada bu sahədə görülən tədbirlərin davamlılığını təmin etmişdir. Bundan əlavə, baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 4 oktyabr tarixli Fərmanının icrası da bu sahənin inkişafına yeni imkanlar yaradır.

Muxtar respublikada baytarlıq təbabətinin inkişafı istiqamətində 2022-ci ilin yanvar-aprel aylarında Kəngərli Rayon Baytarlıq İdarəsinin binasının tikintisi başa çatdırılmış, Culfa Rayon Baytarlıq İdarəsinin binasının tikintisinə başlanılmışdır.

Aqrar sahənin inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri demişdir: ***"Kənd təsərrüfatı iqtisadiyyatın lokomotividir. Ona görə də kənd təsərrüfatı inkişaf etdirilməlidir ki, ölkədə digər sahələrin inkişafı da təmin olunsun. Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər, kənd təsərrüfatının inkişafı qarşıdakı illərdə də məhsul bolluğu yaradacaqdır. Məqsəd ondan ibarətdir ki, kənd təsərrüfatı sahəsində əhalinin məşğulluğu təmin olunsun, məhsul istehsalı daha da artsın".***

Görülən işlərin nəticəsi olaraq 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2022-ci ilin yanvar-aprel aylarında muxtar respublikada diri çəkidə ət istehsalı 13 faiz artaraq 8837,4 ton, süd istehsalı 6,6 faiz artaraq 26949,5 ton, yumurta istehsalı isə 9,9 faiz artaraq 41 milyon 152 min ədəd təşkil etmişdir.

***Əsas heyvandarlıq məhsulları istehsalı (yanvar-aprel ayları üzrə)***




2022-ci ilin yanvar-aprel aylarında 46 milyon 559 min 100 manatlıq heyvandarlıq məhsulları istehsal edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 20,1 faiz çoxdur.

Heyvandarlığın inkişafı istiqamətində həyata keçirilən kompleks tədbirlər əhalinin etibarlı heyvandarlıq məhsulları ilə təminatına, emal sənayesinin, ümumilikdə, muxtar respublika iqtisadiyyatının davamlı inkişafına zəmin yaradır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Zəfər Parkının tikintisi davam etdirilir



İkinci Qarabağ müharibəsində Azərbaycanın igid oğulları öz qəhrəmanlıqları ilə dastan yazdılar. 30 illik arzumuzu gerçəkləşdirən yüzlərlə cəsarətli, şücaətli qəhrəman oğullarımız 44 günlük haqq-ədalət mübarizəmizdə şəhidlik zirvəsinə ucaldı. Qələbə sevincini bizə yaşadan Vətən oğulları dövlətimiz tərəfindən ən ali mükafatlarla təltif edildilər. Ölkəmizin ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət göstərmiş naxçıvanlı hərbi qulluqçular da müxtəlif orden və medallarla mükafatlandırıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən şəhid ailələrinə və qazilərə mənzillər və avtomobillər təqdim olundu. Qəlbəmizin memarı olan, Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan, hər zaman qürurla, ehtiramla anılan qəhrəman oğulların əziz xatirələrinin əbədiləşdirilməsi üçün şəhərimizin Heydər Əliyev prospektində, Möminə xatın abidəsinin yaxınlığında bu ilin mart ayından Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsi tərəfindən Zəfər Parkı inşa edilməkdədir. Ümumi sahəsi 6400 kvadratmetrdir. Parkın mərkəzində ucaldılmaqda olan Zəfər abidəsi özünəməxsus quruluşu və görkəmi ilə seçilməkdədir. Parkın 640 kvadratmetr ərazisini əhatə edən abidə yerdən 12 metr hündürlükdə olacaq, aypara və səkkizguşəli ulduz şəklində dizayn ediləcəkdir. Bununla yanaşı, parkda kollektiv yürüşlərin təşkili məqsədilə eni 6, uzunluğu 100 metr olacaq geniş yol da salınacaq və ərazidə həmişəyaşıl, dekorativ bitkilər əkiləcək.

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Ötən ay 171 nəfərə əmək pensiyası təyin olunub

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi, onların rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlər diqqət mərkəzində saxlanılır.*

Fond tərəfindən əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin vaxtından əvvəl maliyyələşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirilib, pensiyaların ödənilməsinə 17 milyon 540 min manat, məcburi dövlət sosial sığortahaqqı hesabına müavinətlərə isə 329 min manat vəsait xərclənib. Eyni zamanda sığorta prinsipi ilə pensiya alanların hər birinə 2022-ci il üzrə verilməsi nəzərdə tutulan 200 manat maddi yardımın ikinci rüb üzrə 50 manatı da pensiya ilə birlikdə ödənilib. Bundan əlavə, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımın ödənilməsi də təmin edilib.

Ötən ay müvafiq qurum tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə 10 milyon 881 min 800 manat vəsait yığılaraq fondun xəzinə hesabına köçürülüb ki, bu da nəzərdə tutulan məbləğdən 18 faiz çoxdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 60,1 faizi məcburi dövlət sosial sığortahaqqı olaraq muxtar respublikada yığılıb. Hesabat dövründə 3 hüquqi və 253 fiziki şəxs məcburi dövlət sosial sığorta ödəyicisi kimi uçota alınıb. Fərdi uçot sistemində də işlər davam etdirilib və yeni əmək fəaliyyətinə başlayan 424 sığortaolunana şəxsi hesab açılıb.

Müvafiq dövrdə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranan 171 vətəndaşa əmək pensiyası təyin olunub ki, bunlardan 132-si yaşa, 11-i sağlamlıq imkanları məhdudluğa, 28-i isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olub. Pensiya təyin olunan vətəndaşlardan 157-nə qanunvericiliyə əsasən ilk dəfə təyinat olub, 14-nə isə pensiya növündə dəyişiklik edilib. Müvafiq qanunvericiliyə uyğun olaraq 1244 nəfərə məcburi dövlət sosial sığorta haqları hesabına müavinət ödənilib. Bundan əlavə, deputatların, hərbi qulluqçuların, məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının icbari şəxsi sığortası sahəsində müvafiq işlər görülüb, sığortaedənlər tərəfindən 229 min 245 manat vəsait fondun xüsusi hesabına köçürülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*Müasirləşən kəndlərimiz*

## Çörək ətirli yurd yeri...

### Yurda ürəkdən bağlı olan qahablılar deyir: "Biz torpağımızı, kəndimizi heç nəyə dəyişmərik"

***Sən mənim üçün hər fəsildə gözəlsən. Qışda bəyaza bürünmüş çöllərinlə, buz bağlamış məşhur gölünlə, yazda baharın nəfəsi duyulan kimi yerdən sanki püskürüb boy atan otlarınla, yaşıllığa bürünən təpələrinlə, mamırlayan qayalarınla, ətri dağ döşlərinə yayılan kəklikotunla, pencərlərinlə, yay aylarında meyvəli bağlarınla, bərəkətli tarlalarınla, payız aylarında isə bol məhsulun əsasını qoyan zəhmətkeş, əməksevər insanlarınla sən mənim üçün çox doğmasan, yurdumsan, yuvamsan, Qahab kəndi!***



Sənin sinəndə boy atıb böyümüşük, təhsil almışıq, həyatı dərk etmişik, yaxşını pisdən ayırd etməyi öyrənmişik, böyük-kiçik yeri bilmişik, ən əsası isə əməyi, zəhməti sevmişik. Buna görə də biz qahablıları da Naxçıvanın zəhmətkeş, torpağa bağlı, çörəyi halal yolla qazanan insanları kimi tanıyırlar. Doğma kəndimin barlı-bərəkətli torpağının hər qarışını əkib-becərir, onu özümüzə ən yaxşı iş yeri bilirik. İş-güc axtarmaq üçün yaxın-uzaq ellərə üz tutmuruq. Bu kənddə torpağın qədir-qiymətini bilənlər nəinki



öz işini qura bilib, hətta təsərrüfatında bir neçə nəfəri də iş-güc sahibi edib. Mənim üçün onlar zəhmət, əmək qəhrəmanlarıdır və onlardan bir neçəsinin adını çəkməyi, gördükləri iş haqqında danışmağı özümə borc bilirəm. Məsələn, İntiqam Məmmədov və Yunis İsmayılov Qahabın dostluğa, yoldaşlığa sadiq, üstəgəl, ən zəhmətkeş təsərrüfatçıları kimi tanınırlar. Bu iki yoldaş, təxminən, 10 il bundan öncə dövlətin də dəstəyini alaraq Qahabda çörək sexi açıblar. Eyni zamanda hər ikisi ayrı-ayrılıqda kənddə böyük bir ərazidə meyvə bağı salıb. Özü də həmin sahələr uzun illər əkinəyararsız hesab olunaraq əkilməyib. Məhz onların zəhməti sayəsində ərazi daşdan təmizlənib, torpağın münbitliyi artırılıb və bu gün kənddə nümunəvi meyvə bağları ərsəyə gəlib. İndi onları təkcə gördükləri iş və dostluq yox, həm də ortaq bir fikir birləşdirir. Bu fikir isə belədir: "Torpağa bağlılıq insanı mat-məəttəl qoymaz. Dövlət elə bir şərait yaradıb ki, indi torpaq insanı dolandırır, yaşadır. Qidanın da, havanın da təbii forması kənddədir. Biz torpağımızı, kəndimizi heç nəyə dəyişmərik".

Təsərrüfatında 100-dən çox xırdabuynuzlu heyvan saxlayan İqbal Qasımov və onun böyük qardaşı Hünər Qasımov… Qahabda bu qardaşları tanıyanlar bilir ki, onlar bugünkü gün-güzəranlarını, yaşayışlarını təsərrüfat hesabına qurublar. Hər ikisi dövlət maliyyə dəstəyi alaraq işlərini genişləndiriblər. Hünər qatıq istehsalı ilə məşğul olur və Naxçıvan bazarına gündəlik ağartı məhsulları çatdırır. Yeyənlər bilir ki, Hünərin istehsal etdiyi qatığın keyfiyyətinə, dadına söz ola bilməz. Xammal da öz təsərrüfatındandır. Məhsulları qışda aranda, yayda isə yaylaqda bəslədiyi mal-qaranın südündən hazırlayır. Təbii ki, evin böyük oğlu bu qədər işi tək görmək ixtiyarında deyil. Bu işdə onun ən böyük dəstəkçiləri oğlanları Qeyrət, Xoşbəxt və ömür-gün yoldaşı Sədaqət xanımdır. Bax mənə görə məhz budur ailə təsərrüfatı anlayışı. Birlikdə ortaya qoyulan zəhmət və bu zəhmətdən doğan dolanışıq…

Mənim üçün Qahab həm də çörək ətirli yurd yeridir. Fikrimi isə kənddəki mövcud 7 çörək sexinin fəaliyyəti ilə izah edirəm. Qahabın təsərrüfatçılıq ənənələrindən söz düşəndə bu kənddə bişən lavaş, xüsusilə deyilib. Cavad, Fərman, Təbriz, Şəhriyar, Kənan, Vaqif kimi sahibkarlar Qahaba və ətraf kəndlərə, eləcə də Naxçıvan şəhərinə gündəlik çörək daşıyırlar. Bu kənddə ən dadlı çörək istehsalçılarından biri də Vaqif Zamanovdur. Çünki o, çörəyi kərpicdən hörülmüş kürədə qazla yox, məhz odunla bişirir. Kimsə düşünməsin ki, o, mavi yanacaq sarıdan əziyyət çəkir. Qətiyyən, hər kəs bilir ki, Qahab da Naxçıvanın bütün yaşayış məntəqələri kimi illərdir, tam qazlaşdırılıb. Sadəcə, kürədə odunla bişən çörəyin, dastananın, yuxanın ayrı bir dadı var. Vaqif bunu həm də müştərilərinin istəyi, arzusu ilə izah edir. Nə deyək, hamısının qazancı bol olsun!

Bu sahibkarlara, torpaq adamlarına əməyi, zəhməti, halallığı, dürüstlüyü sevdirən bir ocaq var: Qahab məktəbi. Yaxşı məktəb təkcə qəbul imtahanlarında yüksək bal toplayan məzunları ilə öyünməməli, həm də cəmiyyət üçün yararlı fərdlər hazırlamalıdır. Düşünürəm ki, mənim üçün doğma olan məktəbimiz bu missiyanı şərəflə yerinə yetirir. Özü də müasir təlim-tədris metodlarını tətbiq etməklə… İndi müasir tədris üsulu Naxçıvan məktəblərində deyəndə təkcə kompüterlərdən, elektron lövhəli siniflərdən, fənn kabinələrindən istifadə yox, həm də STEAM innovativ təhsil formasının tətbiqi nəzərdə tutulur. Ömrünün 38 ilini maarifə, təhsilə həsr edən Qahab kənd tam orta məktəbinin direktoru Əlövsət müəllimin sözlərinə görə, artıq cari tədris ilindən etibarən məktəbdə STEAM təhsil metodu tətbiq edilir və bunun üçün xüsusi otaq da ayrılıb. Fürsətdən istifadə edib məktəbin qəbul nəticələrini də diqqətə çatdırırıq. Ötən tədris ilində 13 məzunu ali, 1 məzunu isə orta ixtisas təhsili müəssisələrinə yola salan Qahab məktəbi bu il də yüksək nəticələr uğrunda çalışır.





Qahab məktəbi həm də vətənpərvər oğulları ilə öyünür. O oğullar ki onlar şəhidliyi, Vətən uğrunda canından keçməyi ən uca zirvə bildilər. Kəndimizin yetirmələri Birinci və İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla vuruşdular, öz sözlərini döyüş meydanında dedilər. Bir amala köklənildilər: Vətən torpağının bütövlüyünü təmin etmək. Bu yolda Pənah, Mübariz, Babək, Şəhriyar və son olaraq, 44 günlük Vətən müharibəsində şəhid olan Abbasəli kimi oğullar milyonların qəlbində əbədilik taxt qurdu, Rahim, Xalıqverdi, Roman kimi qəhrəman qazilərimizlə öyündük. Bəli, tarixi ədaləti bərpa edənlər sırasında Qahabın yetirmələri də var. Şirürəkli bu oğullara yurd eşqi, bayraq sevgisi, Qarabağ aşiqliyi, dövlətə və dövlətçiliyə sədaqət, yağıya nifrət hissi məhz Qahab məktəbində aşılanmışdı. Vətən sizə minnətdardır!

Uşaqlığımın, gəncliyimin yaşadığı bu kənd son zamanlar böyüyüb, məskunlaşma artıb, yeni məhəllələr yaranıb. Qahabda "Söyüdlük", "Sərdən", "Zamanovların məhəlləsi", "Selovun yanı", "Sürəməliklilərin məhəlləsi", "Hərdələr" kimi maraqlı yer və məhəllə adları vardır. İndi bu məhəllələrin birində gənc bir ustanın işlətdiyi dəzgahın səsi tez-tez eşidilir. Bu səs Zahir ustanın plastik qapı-pəncərə düzəltdiyi sexdən gəlir. İndi o təkcə Qahabdan yox, ətraf kəndlərdən və Naxçıvan şəhərindən də sifarişlər alır, keyfiyyətli məhsullar hazırlayır. Materialları isə "Naxplast" Məhdud Məsuliyyətli Cəmiyyətindən əldə edir.

*Doğma kəndim, hər dəfə sənin barəndə nəsə yazmaq istəyəndə yeni bir mövzu, toxuna biləcəyim sahə tapa bilirəm. Bu dəfə də belə oldu. Sən müasir kənd modelinə, dövlətimiz tərəfindən qurulub-yaradılanlarla, insanların məşğul həyat tərzi, qaynar təsərrüfatınla təkrarsızsan. Fürsətdən istifadə edib sonda oxucularımıza bir daha səslənirəm. Yüz dəfə eşitməkdəndirsə, bir dəfə görmək yaxşıdır. Qahab hər zaman qonaq-qaraya qucaq açmağa hazırdır. Yaşıl meşələrimiz, gursulu dağ çayımız, hündür qayalarımız, şəlaləmiz olmasa da, qonaqpərvər, mərd, zəhmət sevən, mehriban insanlarımız var. Milli-mənəvi dəyərlər – ağsaqqal sözü, ağbirçək öyüdü, valideyn nəsihətinə əməl etmək bizim üçün yazılmamış qanundur. Xeyirdə, şərdə bir olmağı, yumruq kimi birləşməyi bacarırıq. Həm də səni sevməyi bacarırıq kəndimiz, Naxçıvanı, anamız Azərbaycanı sevməyi…*

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***

## Aqrar sahədə maarifləndirmə işləri davam etdirilib

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş Dövlət proqramlarında və verilmiş tapşırıqlarda qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində aprel ayında da maarifləndirmə işlərini davam etdirib. Qəbul edilmiş Dövlət proqramlarının müvafiq bəndlərinin icrası ilə bağlı ailə təsərrüfatçıları və fermerlərin iştirakı ilə tarla seminar-müşavirələri keçirilib, əkin atlaslarından istifadə etməklə yaz əkinlərində növbəli əkin sisteminin tətbiqi, kartof bitkisi əkiləcək sahədən torpaq nümunəsinin götürülməsi və kartofun əkilmə üsulları, yağ üçün qarğıdalı və günəbaxan bitkilərinin əkininin optimal müddətə aparılması, qızılgül bitkisinin əkilib-becərilmə texnologiyası, meyvə və üzüm bağlarında aparılacaq aqrotexniki tədbirlər mövzularında məsləhətlər verilib. Muxtar respublikanın rayonlarında əkin sahələrində müşahidələr aparılıb, karantin mənşəli zərərvericilərə və alaq otlarına qarşı kimyəvi mübarizənin aparılması məqsədilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Respublika Bitki Mühafizə Mərkəzindən alınıb gətirilən pestisidlər torpaq mülkiyyətçilərinə paylanılması üçün rayon icra hakimiyyətlərinə təhvil verilib.



Naxçıvan Dövlət Universitetinin rektoru və müəllim heyəti Kənd Təsərrüfatı Nazirliyinin laboratoriyalarında və əkin sahələrində təcrübə keçən Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə təhsil alan tələbələrin laboratoriyalarda analizlərin aparılmasında iştirakı ilə maraqlanıb və təcrübə sahələrinə baxıblar. Naxçıvan Dövlət Texniki Kollecinin Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan IV kurs tələbələrinə Süni Mayalanma Mərkəzində istehsalat təcrübəsi keçilib, onlara "Törədicilərdən toxum alınması qaydaları və saxlanılması" praktik olaraq göstərilib.

Ay ərzində yeni meyvə bağları və üzümlüklərin salınması qaydaları ilə bağlı 3, əkin sahələrində, meyvə bağlarında xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin aparılması üçün 14 torpaq mülkiyyətçisi nazirliyə müraciət edib, nazirliyin əməkdaşları tərəfindən onlara məsləhət və tövsiyələr verilib. Cari ildə yaz əkinlərinin optimal müddətdə başa çatdırılması, əkin zamanı baş verə biləcək nasazlıqların qısa zamanda aradan qaldırılması üçün rayonlarda yaz əkinlərində iştirak edəcək texnika sahibləri ilə maarifləndirici söhbətlər aparılıb.

Ötən ay Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin mütəxəssisləri tərəfindən "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl sahəsindən gətirilən torpaq nümunələrində analizlər aparılıb, nəticələri yazılı olaraq aidiyyəti üzrə göndərilib. Ordubad rayon Unus kənd sakini Qafar Həsənov tərəfindən gətirilmiş torpaq nümunəsi analiz olunduqdan sonra tərkibindəki qida maddələrinin miqdarına uyğun gübrə normaları hesablanaraq mülkiyyətçiyə bildirilib. "Naxçıvan" Universitetində keçirilən beynəlxalq elmi konfransda şöbə müdiri Fazilə Fərəcovanın "Naxçıvan Muxtar Respublikası şəraitində tərəvəz noxudu bitkisinin torpaqda azotu toplamaq xüsusiyyəti" adlı məqaləsi dinlənilib, konfrans materialı kimi nəşr olunması nəzərdə tutulub. Birliyin əməkdaşları tərəfindən "Naxçıvan Muxtar Respublikası şəraitində tərəvəz lobyası bitkisinin öyrənilməsi", "Naxçıvan Muxtar Respublikasında əkilib-becərilən xəstəlik və ziyanvericilərə qarşı davamlı olan tumlu meyvə sortlarının öyrənilməsi" adlı məqalələri nəşr olunmaq üçün universitetə təqdim edilib.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri fermerlərlə, torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı sahibləri ilə görüşlər keçirib, üzüm və meyvə bağlarında çiçəkdən sonra meyvə əmələ gələn dövrdə xəstəlik və zərərvericilərin vaxtında qarşısını almaq məqsədilə "bordo", "komrasor" və "volk" kimyəvi preparatlardan istifadə etmək tövsiyə olunub. İdarəyə müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə müraciət edən 70 təsərrüfat sahibinə xəstəlik və zərərvericilərə qarşı tələb olunan mübarizə tədbirləri haqqında ətraflı məlumat verilib.

Heyvandarlıqda erkən yazda arı ailələrinə qulluq və arıçılıq məhsullarının artırılmasında yeni texnologiyaların tətbiqinin əhəmiyyəti, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, ana malların süni mayalandırılması, yemləndirilməsi, zoobaytar qaydalarına uyğun qulluq edilməsi, qış və yay otlaqlarından səmərəli istifadə, heyvandarlıqda aqrar sığortanın tətbiqi qaydaları mövzularında seminar-müşavirələr keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*XV əsrin sonlarında Azərbaycanda mövcud olan siyasi dağınıqlıq Səfəvilərə dövləti birləşdirmək uğrunda mübarizə aparmalarına şərait yaradırdı. Səfəvilərin yüksəlişi monqol istilası dövrünə, yəni XIII əsrə təsadüf edir. O dövrdə monqolların işğal etdiyi bölgələrdə sufi təriqəti yaranmışdı. Sufi təriqətini təbliğ edən məktəblərdən biri də Ərdəbildə idi. Bu məktəbin və Səfəvilər sülaləsinin banisi Şeyx Səfiəddin İshaq əl-Musəvi əl-Ərdəbili idi. Bütün Ərdəbil əhalisi şeyxin müridləri hesab olunur və göstərişlərinə əməl edirdi. Səfəvilərin uğur qazanmasının əsas səbəbi o idi ki, onların təbliğ etdiyi sufilik ölkənin oturaq əhalisinin tələbini ifadə edirdi.*

*Tarixin izi ilə*

# Səfəvilərin tarixi Şərur döyüşü


Cabanı döyüşü

XV əsrdə Səfəvi təriqətinə Şeyx Cüneyd və Şeyx Heydər başçılıq etmişdir. Onlar uğurlu yürüşlər ilə öz mövqelərini gücləndirmişdilər. Lakin hər ikisi Azərbaycanın hakim qüvvələri olan Ağqoyunlu və Şirvanşahlar tərəfindən məğlub edilib öldürülmüşdülər. Eyni aqibəti Şeyx Heydərin böyük oğlu Sultanəli də yaşamışdı. Bu hadisələrdən sonra Şeyx Heydərin digər oğlu, gələcəkdə adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdıracaq 13 yaşlı İsmayıl qızılbaşların başına keçdi. Gənc İsmayılın iki əsas məqsədi var idi. Bunlardan biri düşmənlər tərəfindən xaincəsinə öldürülmüş atasının, qardaşının və babasının qisasını almaq, ikincisi isə Səfəvilərin başında durduğu Ərdəbil şeyxliyini böyüdüb dövlətə çevirmək idi. Bunları həyata keçirmək üçün öncə İsmayıl ətrafına güclü ordu yığmalı idi. Bunun üçün o, 1499-cu ildə Lahicandan Ərdəbilə, burada möhkəmlənə bilməyərək Ərzincana doğru hərəkət etdi. Yol boyunca onun tərəfdarlarının sayı dayanmadan artırdı. 1500-cü ildə Ərzincanda qızılbaşların müşavirəsi oldu və qərara alındı ki, ilk zərbəni Şirvanşahlara endirsinlər. Bunun səbəbi o idi ki, əgər İsmayıl öncə Ağqoyunlular üzərinə hücum etsə idi, Səfəvilər Əlvənd, Murad və Fərrux Yasarın qüvvələri arasında qalacaqdı. Beləliklə, Səfəvilər öncə Şirvanşahlar üzərinə yürüş etməyi qərara aldı. 1500-cü ilin sonunda, Gülüstan qalası yaxınlığında, Cabanı adlı yerdə İsmayılla Şirvanşah arasında döyüş başlandı. Qızılbaş qoşununun sağ cinahında şamlı, solunda isə ustaclı tayfalarının döyüşçüləri mövqe tutmuşdular. İsmayıl özü isə mərkəzdə idi: təkəli, rumlu və zülqədər tayfaları gözətçi dəstələri (çərxçiyan) təyin edilmişdilər.

Bu döyüşdə hələ 14 yaşı tamam olmamış İsmayılın döyüş meydanında göstərdiyi şəxsi igidlik onun gələcəkdə qüdrətli bir hökmdar olacağından xəbər verirdi. Bir müddət sonra Səfəvilər Bakı qalasını mühasirəyə aldı və çətinliklə olsa da, oranı tuta bildilər. Səfəvilərin sonrakı hədəfi Gülüstan qalası oldu. Onların məhz bu qalanı tutmaq istəməsinin səbəbi o idi ki, orada Səfəvilərə başağrısı ola biləcək xeyli sayda Şirvan qoşunu var idi və Səfəvilər buranı tutmadan başqa istiqamətə yürüş etsə idi, Şirvan yenidən müstəqilliyini bərpa edə bilərdi. Gülüstan qalası yaxşı müdafiə olunan möhkəm qala idi. Buranı tutmaq Səfəvilər üçün çətin olacaqdı. Onlar qalanı mühasirəyə aldı və gözlənilən kimi mühasirə uzun çəkdi, qalanı tam tuta bilmədilər. Qalanın ələ keçirilməsinin yaxınlaşdığı bir vaxtda Səfəvilər mühasirəni yarımçıq qoyub cənuba doğru irəlilədilər. Buna əsas səbəb kimi, İsmayılın Əlvəndin 30 minlik qoşunla Şirvana yürüşə başlamasından xəbər tutması idi. Əgər İsmayıl Əlvəndi məğlub etsə idi, o, Azərbaycanı birləşdirmək uğrunda ən böyük rəqibinə qalib gəlmiş olacaqdı.

İsmayıl təcili qaydada mühasirəni dayandırıb, Əlvənd Mirzənin ordusunu Şirvana buraxmamaq üçün tədbirlər gördü və onun olduğu Naxçıvana doğru hərəkət etdi. Kür çayını keçmək niyyəti baş tutmayan Əlvənd Mirzə İsmayıla məktub göndərib, Şirvana qayıtmağı və həmin vilayəti idarə etməklə kifayətlənməyi tələb etsə də, rədd cavabı aldı. Belə olduqda, o, Naxçıvandan çıxıb şimal-qərbə doğru getdi və Şərur düzündə dayanaraq qəti döyüşə hazırlaşmağa başladı.

Bu zaman Gülüstandan gələn qızılbaşlar Naxçıvana çatdı, Ağqoyunlu qoşunlarının burada olmadıqlarını görüb onlar da qərbə doğru irəlilədilər. Tez bir zamanda Ağqoyunlu düşərgəsinin yaxınlığına yetişərək orada yerləşdilər.

Həsən bəy Rumlu səfəvi qüvvələrin 7000-i keçmədiyi məlumatını verirdi. Qızılbaş ordusunun sol cinahında Xadim bəy Xülafə, Məhəmməd bəy Ustaclı və Bayram bəy Qaramanlı, sağ cinahında isə Qaraca İlyas Bayburtlu, Piri bəy Qacar, Əli bəy Rumlu və digərləri mövqe tutmuşdu. Mərkəzə isə İsmayıl özü başçılıq edirdi. Ağqoyunlu ordusunun təqribi sayı isə bəzi mənbələrdə 10 min, bəzilərində isə 30 minə yaxın göstərilmişdir. Ağqoyunlu qüvvələrinin sağ cinahına Məmməd bəy və Qulabu bəy, sol cinahına isə Qaraca Mahmud və Xəlil bəy başçılıq edirdi. Mərkəzdə isə Əlvənd Mirzə özü yer tutmuşdu.

Lakin Ağqoyunlu qoşununun sayca üstün olmasına baxmayaraq, Əlvənd Mirzənin qələbəyə ümidi az idi. Bu haqda İsgəndər bəy Münşi yazır ki, İsmayılın şücaəti və qorxmazlığı, həmçinin ölümü əbədi həyat bilən qızılbaşların fədakarlığı Ağqoyunluları bərk qorxuya salmışdı.

Elə bu səbəbdən də Əlvənd Mirzə ordusunun döyüş meydanından qaçmasının qarşısını almaq üçün dəvələri ordu sırasının arxasına düzməyi və zəncirləməyi əmr etmişdi. O, ordusunun çoxluğuna güvənərək hücum əmri verdi. Döyüş 1501-ci ilin avqust ayında başladı. Səfəvi cinahı aypara şəklində açılaraq Ağqoyunluları ox atəşinə tutdu. Ağqoyunlular böyük itkilər verərkən İsmayıl Mirzənin əmri ilə mərkəz cinahda hücuma keçdi.

Döyüş zamanı İsmayıl Mirzə başda Kərçiqay bəy olmaqla bir çox rəqibini qılıncdan keçirərək öz sərkərdəlik məharətini və şəxsi hünərini göstərdi. Qızılbaşların ardıcıl ümumi hücumu zamanı Ağqoyunlulardan Lətif bəy, Sidi Qazi bəy, Musa bəy, Qaraca Mahmud bəy öldürüldü. Vəziyyətin getdikcə Səfəvilərin xeyrinə dəyişdiyini görən Əlvənd Mirzə ordusuna geri çəkilmə əmri verdi. Bir tərəfdən zəncirlənmiş dəvələr, digər tərəfdən isə Səfəvi qüvvələri arasında qalan Ağqoyunlu ordusu darmadağın edildi.

Döyüş Səfəvilərin qalibiyyəti ilə nəticələndi. Əlvənd Mirzə canını qurtararaq Ərzincana (bəzi mənbələrdə Diyarbəkirə) qaçdı. İsmayıl bu döyüşdən sonra Təbrizə daxil oldu və hakimiyyətini elan etdi.

Səfəvilərin bu döyüşdə qələbə çalmasının əsas səbəblərindən biri yerli əhalinin Ağqoyunlulara rəğbət bəsləməməsi, əksinə, qızılbaşlara heç bir müqavimət göstərməyərək açıqcasına onların tərəfinə keçməsi idi. Deməli, Səfəvilərin burada uğur qazanmasında Naxçıvan əhalisinin də rolu olmuşdur. Digər tərəfdən isə yerli əhali hələ ilk vaxtlardan qızılbaşların hakimiyyətinə üstünlük vermişdir. Tarixçi-alim Rauf Məmmədov mənbələrə istinadən göstərmişdir ki, Naxçıvan bölgəsinin Səfəvi idarəçiliyinə daxil edilməsi qızılbaşların qüvvəsini müəyyən qədər möhkəmləndirmişdir. Bu qələbə gənc İsmayıla Naxçıvan və Qarabağ bölgələri ilə birlikdə bütün Cənubi Azərbaycanı və indiki Ermənistan Respublikasının şimalını qazandırdı. Yəni həmin vaxt Ağqoyunlu dövlətinin Əlvənd Mirzənin hakimiyyəti altında olan əraziləri tutuldu.

Bəs bu döyüşün Naxçıvan ərazisində olmasını kim seçmişdi? Və yaxud döyüş Naxçıvan Muxtar Respublikasının hansı ərazisində baş vermişdi?

Tarixçi-alim Mehman Süleymanovun apardığı tədqiqatlara əsasən Şərur düzünün döyüş meydanı seçilməsi Əlvənd Mirzənin təşəbbüsü idi. Buna görə də Əlvənd öz qoşunu ilə Təbrizdən Naxçıvana gəlmiş və elə döyüşü burada keçirmək istəmişdi. Lakin sonradan fikrini dəyişmişdi. Çünki Naxçıvan və ətrafı böyük qoşunun fəaliyyəti üçün yararlı deyildi. Bir tərəfdən Araz çayı, digər tərəfdən dağlıq ərazi 30 minlik qoşunun hərəkətinə mane ola bilərdi. Buna görə də Əlvənd qərbə, yəni Çuxursədə doğru hərəkət etdi. O, Şərur düzünə çatanda buranın döyüş üçün əlverişli olduğunu görüb məhz burada düşərgə salmağı qərara aldı.

Şərur düzünün hansı ərazidə yerləşməsinə gəldikdə isə bu düzənlik Vəlidağ-Dəhnə yüksəkliyindən Qarabağlar-Qıvraq tirəsinədək uzanaraq Arazboyu düzənliyin böyük bir hissəsini tutur. Dəniz səviyyəsindən 780-850 metr mütləq yüksəklikdə yerləşməklə Araz çayı boyunca 14 kilometr enində və 30 kilometr uzunluqda olan bir ərazidə uzanır. Dağətəyi maili düzənlik olan Şərur düzənliyi cənub-şərqə doğru Qaraçoban, Tənənəm və Qarabağlar-Qıvraq kimi daha kiçik maili düzənliklərə bölünür.

Döyüş üçün məhz Naxçıvanın seçilməsi ilə bağlı digər məşhur bir iddiaya görə, İsmayıl Mirzə Gülüstan qalasının mühasirəsində olarkən ona xəbər gəldi ki, Əlvənd böyük bir qoşunla Kür çayı tərəfə gəlir. Bunu öyrənən İsmayıl Mirzə əmr etdi ki, Səfəvi qoşunu tez bir zamanda Kürün cənubuna keçərək Əlvəndin üzərinə hücum etsin. Lakin Səfəvilərin kəşfiyyatçısı Məhəmməd Xəlilin yolladığı çapar xəbər verdi ki, Əlvənd Naxçıvanda düşərgə salıb. Bunu eşidən İsmayıl Naxçıvana doğru irəliləməyə başladı. Yolüstü Əlvəndin göndərdiyi Osman bəy Mosullunu məğlub edərək özünü Ağqoyunluların düşərgəsinə çatdırdı.

*Beləliklə, Azərbaycanın dövlətçilik tarixində mühüm əhəmiyyət kəsb edən Azərbaycan Səfəvilər dövlətinin qurulmasına aparan yol məhz qədim Azərbaycan torpağı olan Naxçıvandan keçmişdir. Fikrimizcə, bu hər zaman olduğu kimi, bəhs edilən dövrdə də Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində mühüm mövqeyə sahib olduğundan xəbər verir.*

**Məhəmməd ALLAHVERDİYEV,**
**Elnar ƏHMƏDLİ**
***Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin X sinif şagirdləri, "Sabahın tədqiqatçıları – 2022" layihəsinin iştirakçıları***
**Elmi rəhbər: İlhami ƏLİYEV**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim və orta əsrlər tarixi şöbəsinin müdiri***

## *"Gəncliyimiz və Azərbaycan dili"* mövzusunda elmi-praktik konfrans

*"Naxçıvan" Universitetində Azərbaycan Respublikasının Dil Komissiyası yanında Monitorinq Mərkəzi ilə birgə "Gəncliyimiz və Azərbaycan dili" mövzusunda elmi-praktik konfransı keçirilib.*



Konfransda çıxış edən "Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, ana dilimizin dövlət dili statusuna yüksəldilməsi, dilimizin qorunması, hərtərəfli inkişafı və beynəlxalq münasibətlər sisteminə yol tapması ulu öndər Heydər Əliyevin düşünülmüş siyasətinin bəhrəsidir. Hər bir millətin maddi və mənəvi irsinin qorunması və inkişafında dilin əvəzsiz rolundan danışan rektor Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncam və fərmanları xatırladaraq daim bu istiqamətdə çalışmalar həyata keçirməyin zəruriliyindən söz açıb.

Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva bildirib ki, dil millətin simasını səciyyələndirən mühüm amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu yüksəliş millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilin zənginliyinin sübutudur.

"Naxçıvan" Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi, professor Sədaqət Həsənova Azərbaycan dilinin hərtərəfli inkişafının ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olduğunu diqqətə çatdırıb.

Konfransda Monitorinq Mərkəzinin əməkdaşları Səma Vəliyeva, Türkanə İsrafilova, Nərgiz Əsədova və Günel Məmmədovanın çıxışları dinlənilib. Konfrans maraqlı diskussiya şəraitində davam edib.

Yekunda qonaqlara "Naxçıvan" Universiteti adından hədiyyələr təqdim edilib.

Qeyd edək ki, "Naxçıvan" Universitetində xarici dillərin tədrisi istiqamətində də məqsədyönlü iş aparılır. Bu günlərdə universitetdə Alman Dili Tədrisi Mərkəzinin açılışı olub. Açılış mərasimində alman professoru Ziglinde Hartmann, naşir Hans-Jürgen Maurer, Bakı Slavyan Universitetinin professorları Sevinc Rzayeva, Əfqan Abdullayev, baş müəllimi Leyla Bəylərova və universitetin professor-müəllim heyəti iştirak edib. Almaniyanın Höte adına Dövlət Mədəniyyət İnstitutunun rəsmi tərəfdaşı olan Alman Dili Tədrisi Mərkəzinin hədiyyə etdiyi kitablarla "Naxçıvan" Universitetinin Elmi Kitabxanasında "Almaniya kitab guşəsi" də yaradılıb.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Beynəlxalq Muzeylər Günü münasibətilə tədbir keçirilib

*Mayın 18-də Mədəniyyət və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Beynəlxalq Muzeylər Günü və "Tariximizi qoruyaq və yaşadaq" aksiyasının yekunu ilə bağlı tədbir keçirilmişdir.*

Tədbiri Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Kərimov açaraq qeyd etmişdir ki, YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının 1977-ci ildə qəbul etdiyi qərara əsasən 18 may bütün dünyada "Beynəlxalq Muzeylər Günü" kimi qeyd edilir.



Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları muzeyşünaslığın yeni nailiyyətlərinə əsaslanaraq yaradılır, Azərbaycan tarixinin yeni uğurlu səhifələri muzey ekspozisiyalarında əksini tapır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muzeylərimiz müasir tələblər səviyyəsində yenidən qurulmuş, bu sahədə mühüm tədbirlər həyata keçirilmişdir.

Bildirilmişdir ki, muxtar respublikada muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzeylərin əməkdaşları ilə yanaşı, muxtar respublika vətəndaşları, xüsusilə ümumtəhsil məktəblərinin müəllim və şagirdləri yaxından iştirak edirlər.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Heyran Əhmədova qeyd etmişdir ki, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onlara tariximizin öyrədilməsi ilə bağlı müxtəlif səpkili tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri də 2019-cu ildən ümumtəhsil məktəblərində keçirilən "Tariximizi qoruyaq və yaşadaq!" aksiyasıdır.



Bu il də davam etdirilən aksiya çərçivəsində müəllim və şagirdlərimiz tərəfindən qədim maddi mədəniyyət nümunələri, o cümlədən şəxsi kolleksiyalarda toplanmış tarixi və bədii əhəmiyyət daşıyan 225 eksponat toxuculuq məmulatları, məişət əşyaları, təsərrüfat alətləri, daş əmək alətləri, pul nümunələri və digər məmulatlar toplanaraq bir araya gətirilib.

Çıxış edənlər muxtar respublikada muzey işinin inkişafına, muzeylərin fəaliyyətinə göstərilən böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından minnətdarlıqlarını bildirmişlər.

Digər çıxışlardan sonra "Tariximizi qoruyaq və yaşadaq!" devizi altında keçirilən aksiyada fəal iştirak edənlər mükafatlandırılmış, hədiyyə olunan eksponatlardan ibarət sərgiyə və muzeyin ekspozisiyasına baxış keçirilmiş, toplanmış eksponatlar Təhsil Nazirliyi tərəfindən Mədəniyyət Nazirliyinə hədiyyə edilmişdir.

**Xəbərlər şöbəsi**

***Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.***

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir



Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 28 yoxlama-reyd keçirilmişdir. Bu sahədə 2 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublikanın təbiətinin qorunması istiqamətində inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir. Keçirilən reyd-yoxlamalar zamanı yaşayış məntəqələrində əhali arasında fərdi ekoloji-hüquqi maarifləndirici söhbətlər aparılmış, ətraf mühitə təsir hallarının azaldılması, təbii sərvətlərdən səmərəli istifadə və mühafizə tədbirlərinin əhəmiyyəti haqqında geniş məlumat verilmişdir.

Ay ərzində mühüm ekoloji tədbirlərdən biri kimi ekoloji monitorinqlərin aparılması diqqətdə saxlanılmışdır. Bu məqsədlə Naxçıvan şəhəri, Babək, Şahbuz, Kəngərli, Sədərək, Culfa, Ordubad və Şərur rayonlarının 29 yaşayış məntəqəsi ərazisində monitorinqlər keçirilmişdir. Monitorinqlər zamanı su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması kimi fəaliyyət sahələrində qiymətləndirmə işləri həyata keçirilmişdir. Monitorinqlər zamanı müəyyən çatışmazlıqlar da aşkar edilmiş, onların aradan qaldırılması üçün icrası məcburi olan tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında aprel ayı ərzində Arazın və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və 138 analiz aparılmışdır. Analizlərdə dəmir norma həddi aralığında olmuş, manqan, mis, nikel qurğuşun, sink, alüminium və tritium izotopunun radioaktivlik dozası norma həddini keçməmişdir.

Hesabat ayında təsdiq olunmuş sxem-plan əsasında kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaq sahələrində şoranlaşmış və eroziyaya uğramış torpaqların müəyyənləşdirilərək əkin dövriyyəsinə qatılması üçün yeni meyvə bağlarının salınması, həmçinin bərpa aparılması, eləcə də toxumla əkin işləri davam etdirilmişdir. Ümumilikdə, 8 hektar sahədə yeni meyvə bağları salınmış, 6,5 hektar sahədə müxtəlif meyvə tingləri ilə bərpa aparılmış, 72 hektar sahədə toxumla əkin keçirilmişdir. Əkin-bərpa zamanı 7480 müxtəlif növ meyvə və meşə tinglərindən, 1400 üzüm kolundan, 600 həmişəyaşıl, 50 qızılgül kolundan, 1200 kiloqram müxtəlif toxumlardan istifadə olunmuşdur.

Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsindəki yaşıllıq zolaqlarında, xizək mərkəzinin ətrafında və Biçənək kəndinə gedən yolun kənarlarındakı yaşıllıq sahələrində ziyanvericilərə qarşı mübarizə məqsədilə dərmanlama işləri həyata keçirilmişdir. Ötən ay Xətai və Duzdağ ərazisində 13 min üzüm çiliyi vurulmuş, Qoşadizə tingçilik sahəsində püstə və çinar toxmacarlığı yaradılmışdır. Həmçinin 100 həmişəyaşıl dibçəyi əkilmiş, 1,5 hektar sahə alaq otundan təmizlənmiş, suvarma aparılmışdır. Çay vadilərində çilik üsulu ilə əkin işləri çərçivəsində, ümumilikdə, 6200 iydə, söyüd və qələmə çilikləri, həmçinin cır meyvə ağaclarının məhsuldarlığının artırılması məqsədilə Zəngəzur Milli Parkı ərazisində 250 müxtəlif meyvə ağacına calaq vurulmuşdur.

Cari ilin aprel ayında Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə çöl işləri, kameral və ümumi xarakterli işlər yerinə yetirilmişdir. Hesabat dövründə müqavilə yolu ilə Naxçıvan şəhərinin Nəsirəddin Tusi küçəsində inşa ediləcək fərdi yaşayış evləri üçün nəzərdə tutulmuş sahədə hər birinin dərinliyi 10 metr olan 11, Culfa şəhərində tikintisi davam etdirilən yeni 132/110/35 kilovoltluq elektrik yarımstansiyasının yaxınlığında külək turbinlərinin inşası üçün nəzərdə tutulmuş sahədə hər birinin dərinliyi 5 metr olan 2 tədqiqat quyusu qazılmışdır. Qazılmış quyulardan çıxarılan süxurların fiziki-mexaniki xüsusiyyətlərini tədqiq etmək üçün götürülmüş kern nümunələri və quyuların geoloji-litoloji kəsilişləri tərtib olunaraq sifarişçilərə təqdim edilmişdir.

Ali Məclis Sədrinin müvafiq sərəncamlarından irəli gələn vəzifələrin icrası məqsədilə hami ixtisas tələbələrinin və ekologiya könüllülərinin iştirakı ilə Beynəlxalq quşlar gününə həsr edilmiş ekskursiya keçirilmişdir. Tədbir iştirakçıları Araz Su Anbarı ərazisində məskunlaşmış ornitofauna növlərini xüsusi teleskop və binokl vasitəsilə müşahidə etmişlər. Eyni zamanda hami ixtisas tələbələrinin iştirakı ilə yeni meyvə bağı salınmışdır. Gənclərlə işin təşkili məqsədilə ekologiya könüllüləri və digər gənclərlə birgə Beynəlxalq Yer Günü ilə əlaqədar olaraq Heydər Əliyev Su Anbarının ətrafında "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir!" devizi altında təmizlik aksiyası keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***<u>Sual:</u> Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində hansı qaydada haqqıödənilən əmək fəaliyyəti ilə məşğul ola bilər?***

***Cavab:*** 18 yaşına çatmış əmək qabiliyyətli hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikası Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qayda və şərtlərlə onu işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsilə iş icazəsi aldıqdan sonra işləyə bilər. İş icazəsinin verilməsi üçün tələb olunan sənədlər yazılı və ya elektron müraciət formasında Dövlət Miqrasiya Xidmətinə təqdim edilir.

İş icazəsi ilə bağlı daxil olmuş müraciətlərə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarına əsasən ödənilən dövlət rüsumunun məbləğinə müvafiq olaraq 10, 15 və 20 iş günü müddətində baxılır. İş icazəsi 1 il müddətinə, əmək müqaviləsinin 1 ildən az müddətə bağlanılması nəzərdə tutulduqda isə həmin müddətə verilir. İş icazəsinin müddəti hər dəfə 1 ildən çox olmamaq şərti ilə uzadıla bilər. İşəgötürən icazə müddətinin bitməsinə azı 30 gün qalmış Dövlət Miqrasiya Xidmətinə ərizə ilə müraciət etməlidir.

Ölkə vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya sahəsini əhatə edən və bu sahədə maraqdoğuran müxtəlif mövzularla bağlı suallarını Dövlət Miqrasiya Xidmətinin *202* Miqrasiya Məlumat Mərkəzinə, *miqrasiya.nakhchivan.az* saytının e-mail ünvanına və ya xidmətin rəsmi "Facebook" (Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti) və "Instagram" (nmr_miqrasiya_xidmeti) sosial şəbəkə hesablarına ünvanlayaraq ətraflı məlumat əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya xidmətinin mətbuat xidməti***

## "Heydər Əliyev kuboku" uğrunda peyntbol birinciliyi

Naxçıvan Atıcılıq Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş peyntbol üzrə muxtar respublika açıq birinciliyi keçirilib.

Olimpiya sisteminə əsasən qalibin müəyyənləşdiyi yarışda "Naxçıvan" Universiteti və Heydər Əliyev adına Hərbi Liseyin komandaları finalda bir-birinə rəqib olub. Həlledici oyunu üstünlüklə tamamlayan tələbələr muxtar respublika birincisi olublar. Hərbi liseyi və Naxçıvan şəhərini təmsil edən komandalar müvafiq olaraq 2-ci, 3-cü sıralarda qərarlaşıblar.



Atıcılıq Mərkəzində keçirilən mükafatlandırma mərasimində Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, Atıcılıq Federasiyasının sədri Səhət Həbibbəyli çıxış edərək ümummilli lider Heydər Əliyevin ölkə idmanının inkişafındakı əvəzsiz xidmətlərindən bəhs ediblər. Qeyd olunub ki, dövlət idman siyasəti nəticəsində ölkəmizdə, eləcə də muxtar respublikada müasir idman mühiti yaradılıb. İllər ötdükcə yenilənən və müasirləşən idman infrastrukturu sayəsində gənc nəslin bu sahəyə cəlbi diqqətdə saxlanılır, istedadlı idmançıların ölkə və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir.

Çıxışlarda muxtar respublikada gənclərin hərtərəfli inkişafı və idmana göstərilən qayğıya görə Ali Məclis Sədrinə minnətdarlıq ifadə olunub.

İlk üçlükdə qərarlaşan komandalar diplom, kubok və hədiyyələrlə təltif ediliblər. Mükafatçılara, həmçinin ödənişsiz peyntbol oyunu üçün kupon da hədiyyə olunub.

## Karateçilərimizin uğurlu Sumqayıt səfəri və maraqla gözlənilən Bolqarıstan sınağı



Mayın 14-15-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə fudokan (ənənəvi karate üslubu) üzrə birinci açıq Sumqayıt şəhər birinciliyi və çempionatı keçirilib. Sumqayıt Olimpiya İdman Kompleksində reallaşan yarışda 600-dən çox idmançı "Bu günün sağlam gənci, dövlətimizin gələcəyi, sabahımızın təminatçısıdır!" şüarı altında mübarizə aparıb.

Naxçıvan Karate-do Federasiyasından 22 idmançı yarışda iştirak edib. Təmsilçilərimizin çıxışı uğurlu alınıb. Belə ki, karateçilərimiz 8-i qızıl, 4-ü gümüş, 13-ü bürünc olmaqla toplamda 25 medal qazanıblar. Bundan əlavə, federasiyadan 9 idmançı və 1 məşqçi Bolqarıstanın Albena Kranevo şəhərində keçiriləcək 12-ci Avropa Şotokan çempionatında iştirak edəcək. 20-22 may tarixlərini əhatə edən qitə birinciliyində məşqçi Siyavuş Bayramovun rəhbərliyi ilə Rəşad Qasımov (18-21 yaş, 60 kiloqram), Vüsal Seyidov (16-17 yaş, 60 kiloqram), Məhəmməd Bağırov (14-15 yaş, 57 kiloqram), Qafar Hüseynov (14-15 yaş, 52 kiloqram), Nərgiz Həsənli (12-13 yaş, -57 kiloqram), Yaqub Qənbərov (12-13 yaş, 50 kiloqram), Canər Abbaszadə (12-13 yaş, 44 kiloqram), Rafiq Hüseynli (10-11 yaş, 42 kiloqram) və Saleh Qənbərov (7 yaş, 25 kiloqram) mübarizə aparacaqlar. Çempionatda iştirak edəcək Naxçıvan heyəti bu gün yola düşüb.

Qeyd edək ki, Dünya Şotokan Federasiyasının təşkilatçılığı ilə keçiriləcək yarışda müxtəlif yaş kateqoriyaları üzrə idmançıların, həmçinin paralimpiyaçıların iştirakı nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 10 iyun 2022-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/№ | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin ilkin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | VAZ-21214 | Minik | 2003 | 1 | 6000.0 | 600 |
| 2. | VAZ-21214 | Minik | 2006 | 1 | 8000.0 | 800 |
| 3. | VAZ-2121 | Minik | 1993 | 1 | 5500.0 | 550 |
| 4. | UAZ-31512 | Minik | 2004 | 2 | 6500.0 | 650 |
| 5. | QAZ-3308 | Yük | 2003 | 28 | 7000.0 | 700 |
| 6. | QAZ-3308 | Yük | 2002 | 1 | 6000.0 | 600 |
| 7. | QAZ-66 | Yük | 1990 | 1 | 5000.0 | 500 |
| 8. | Zil-130 | Yük | 1983 | 1 | 5000.0 | 500 |
| 9. | Zil-131 | AÇ-4.5 su | 1985 | 1 | 7000.0 | 700 |
| 10. | Zil-131 | AÇ-4.2 su | 1989 | 1 | 8000.0 | 800 |
| 11. | Zil-131 | AÇ-4.5 su | 1985 | 1 | 7000.0 | 700 |
| 12. | Zil-131 | AÇ-4.2 su | 1988 | 1 | 8000.0 | 800 |
| 13. | Zil-131 | TA-6 | 1989 | 1 | 8000.0 | 800 |
| 14. | Zil-131 | AÇ-4.5 su | 1990 | 1 | 8500.0 | 850 |
| 15. | Zil-131 | 8 YU 12 | 1988 | 1 | 8000.0 | 800 |
| 16. | Zil-131 | Hidrokran | 1989 | 1 | 16000.0 | 1600 |
| 17. | Zil-131 | AD-30 | 1988 | 1 | 8000.0 | 800 |
| 18. | Zil-131 | Hidrokran | 1987 | 1 | 15000.0 | 1500 |
| 19. | Zil-131 | Hidrokran | 1985 | 1 | 14000.0 | 1400 |
| 20. | URAL-4320 | AÇ-5.5 ysm | 1986 | 1 | 13000.0 | 1300 |
| 21. | URAL-4320 | Özüboşaldan | 1993 | 1 | 17000.0 | 1700 |
| 22. | URAL-4320 | Özüboşaldan | 1988 | 1 | 15000.0 | 1500 |
| 23. | Kamaz-4310 | Yük | 1986 | 1 | 25000.0 | 2500 |
| 24. | Kamaz-43101 | Yük | 1985 | 1 | 20000.0 | 2000 |
| 25. | Kamaz-4310 | Yük | 1990 | 1 | 25000.0 | 2500 |
| 26. | Kamaz-5320 | Yük | 1988 | 1 | 15000.0 | 1500 |
| 27. | UAZ-31512 | Minik | 1987 | 1 | 5500.0 | 550 |
| 28. | UAZ-31512 | Minik | 1989 | 2 | 5500.0 | 550 |
| 29. | Kamaz-5511 | Yük | 1988 | 1 | 11000.0 | 1100 |
| 30. | Ekskovator EA | Yük | 1978 | 1 | 8000.0 | 800 |
| 31. | BMC PRO-522 | Yük | 2009 | 1 | 33934.0 | 3393.40 |
| 32. | NİSSAN MAXİMA | Minik | 2006 | 1 | 13000.0 | 1300 |
| 33. | NEXİA 2 SONC | Minik | 2009 | 1 | 8000.0 | 800 |
| 34. | VAZ-21217 | Minik | 2004 | 1 | 7000.0 | 700 |
| 35. | Opel Astra | Minik | 2007 | 1 | 9000.0 | 900 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 7 iyun 2022-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 10 iyun 2022-ci il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38.***

### İtmişdir

Qasımov Əkbər Yusif oğlunun adına olan evin 2634 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər M.Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbinə məxsus 019811 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kəndində yaşamış Həbilov Məmməd İbrahim oğluna məxsus Sədərək kəndində yerləşən torpağın JN-2974$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"si itdiyindən etibarsız sayılır.

***

Tağıyev Salman Elbrus oğlunun adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 430